# Biz haqlıyıq, biz zəfər çalacağıq!



# Türkiyə bölgədə sabitləşdirici rol oynayır, haqqın – ədalətin bərpasına çalışır

***Türkiyə ilə Azərbaycan arasındakı səmimi əməkdaşlığın, təmənnasız münasibətlərin, xalqlarımızın və dövlətlərimizin bir-birinə dayaq olmasının təsdiqini, sübutunu axtarmağa və ya hansısa faktları sadalamağa ehtiyac yoxdur. Çünki Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan 2018-ci il sentyabrın 15-də Bakıda – “Azadlıq” meydanındakı nitqlərində bu məzmunda çox fakt və rəqəmlər ortaya qoymuşdular. Dünya ictimaiyyəti, xüsusən, işğalçı Ermənistanın başsız başçıları həmin gün dilə gətirilən tarix dərslərindən nəticə çıxarmalı idilər. Çox təəssüf ki, ermənilər həmin dərsin mahiyyətini anlaya bilmədilər. Ona görə də, indi “imtahandan kəsilirlər”.***

Bu əməkdaşlığın tarixi barədə məlum olan xüsusi məqamları yada salmağa ehtiyac olmasa da, mən bir məqamı xatırlatmaq istəyirəm. Çünki həmin məqam da bilavasitə Ermənistanın işğalçılıq siyasəti ilə bağlı olduğuna görə, bu günümüzlə səsləşir və sübut ediir ki, Türkiyə ən çətin məqamlarda belə Azərbaycanın yanında olmuşdur.

Məsələ ondadır ki, ötən əsrin 90-cı illərinin əvvəllərində, erməni həyasızlığının tüğyan etdiyi illərdə Naxçıvan Muxtar Respublikası, sözün həqiqi mənasında, məşəqqətlər və məhrumiyyətlər içərisində yaşayırdı. Həmin ağır dövrdə ulu öndər Heydər Əliyevin nüfuzu sayəsində qurduğu beynəlxalq əlaqələri muxtar respublikanın mövcudluğu üçün bəlkə də yeganə vasitə idi. Xüsusilə vurğulanmalı və xatırlanmalı faktdır ki, mühasirədə olan Naxçıvanın xilasında 1992-ci il mayın 28-də açılan Sədərək – Dilucu körpüsü mühüm rol oynamışdı. Körpünün açılış mərasimində çıxış edən Heydər Əliyev demişdir: “Biz – azərbaycanlılar, türklər 70 il bir-birimizlə görüşmək üçün, əlaqə saxlamaq üçün həsrət çəkmişik. 70 il biz bu görüşü həsrətlə gözləmişik”.

Mənə elə gəlir ki, Türkdilli Dövlət Başçıları Şurasının Naxçıvanda keçirilən ilk sammitinin iştirakçıları da, müstəqillik dövründə Bakıya səfər edən Türkiyə liderləri də, Dağlıq Qarabağın işğaldan azad edilməsi üçün apardığımız haqlı və ədalətli mübarizənin bu günlərində Azərbaycan paytaxtına gəlmiş Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyəti də – yəni bütün türklər ölkəmizə, məhz Dilucu körpüsündən keçərək gəlir. Həmin ağır günlərdə yaranmış körpünün tariximizdə əbədi qalacağına inanırıq. Allah ümummilli liderimizə rəhmət eləsin!

Cənab Mövlud Çavuşoğlunun Bakı səfərinə gəlincə isə xatırladaq ki, qardaş ölkənin baş diplomatı paytaxtımızda olduğu ilk saatlarda dedi ki, bu gün Azərbaycan öz torpaqlarını azad etmək üçün mübarizə aparır və buna qadirdir, gücü vardır, potensialı vardır: “Əlbəttə, Türkiyə olaraq və türk xalqı olaraq, biz də nə vaxt ehtiyacı olarsa, hansı sahədə ehtiyac duyarsa, Azərbaycana hər cür dəstəyi verməyə hazırıq. Bunu Prezidentimiz Ərdoğan və bizlər hər platformada izah edirik, vurğulayırıq”.

Qardaş ölkənin Xarici İşlər nazirini qəbul edən Azərbaycan Prezidenti İlham Əliyev Mövlud Çavuşoğlunun ölkəmizə əvvəllər də çoxsaylı səfərlərinin olduğunu söylədi və əlavə etdi ki, bu səfərin xüsusi önəmi var: “Azərbaycan üçün o qədər də asan olmayan bir dönəmdə sizin gəlməyiniz, əlbəttə ki, xüsusi önəm daşıyır. Bu, qardaş ölkənin açıq dəstəyinin təzahürüdür. Bu dəstəyə görə Azərbaycan xalqı qardaş türk xalqına və onun Prezidentinə dərin minnətdarlıq hissi ilə yaşayır”.

Dövlət başçımızın fikrincə, qardaş ölkənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın son günlər baş verən proseslərlə bağlı açıq, qətiyyətli bəyanatları bütün dünyaya göstərdi ki, Azərbaycan tək deyil. Azərbaycanın yanında Türkiyə kimi dünya miqyasında böyük bir güc olan dövlət var, qardaş ölkə var. Bu dəstək bizi ruhlandırır, bizə əlavə güc verir və eyni zamanda, bölgədə sabitliyin, əmin-amanlığın təmin edilməsi üçün önəmli rol oynayır: “Mən bunu bu günlər ərzində demişəm ki, Türkiyə bölgədə sabitləşdirici rol oynayır. Türkiyənin bölgədə və dünyada yalnız sülhə hesablanmış siyasəti artıq öz nəticələrini verməkdədir, həm Yaxın Şərq bölgəsində, eyni zamanda, Qafqaz bölgəsində. Ona görə Ermənistanın növbəti hücumu ilə əlaqədar bu gün yaranmış vəziyyət bir daha onu göstərir ki, Türkiyə həm regionda, həm dünyada söz sahibidir. Əlbəttə ki, bu, bizi gücləndirir, ruhlandırır. Bu gün həm bizim xalqlarımız, həm də bütün dünya görür ki, Türkiyə-Azərbaycan birliyi nə deməkdir”.

> ***Türkiyənin bölgədə və dünyada yalnız sülhə hesablanmış siyasəti artıq öz nəticələrini verməkdədir, həm Yaxın Şərq bölgəsində, eyni zamanda, Qafqaz bölgəsində. Ona görə Ermənistanın növbəti hücumu ilə əlaqədar bu gün yaranmış vəziyyət bir daha onu göstərir ki, Türkiyə həm regionda, həm dünyada söz sahibidir.***
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

Mövlud Çavuşoğlu məmnun olduğunu bildirərək dedi ki, bu gün Azərbaycan öz torpaqlarını azad etmək üçün mübarizə aparır və buna qadirdir, gücü vardır, potensialı vardır: “Əlbəttə, Türkiyə olaraq və türk xalqı olaraq, biz də nə vaxt ehtiyacı olarsa, hansı sahədə ehtiyac duyarsa, Azərbaycana hər cür dəstəyi verməyə hazırıq. Bunu Prezidentimiz Ərdoğan və bizlər hər platformada izah edirik, vurğulayırıq”.

“Azərbaycanın haqlı mübarizəsini bütün dünyaya çatdırmaq bizim də borcumuzdur”– deyən qardaş ölkənin baş diplomatı dövlət başçımızı əmin etdi ki, biz bundan sonra daha böyük güclə bir yerdə çalışmağa davam edəcəyik: “ Azərbaycanın işğal edilmiş torpaqları artıq azad olunmalıdır. Azərbaycan hüquqi və mənəvi cəhətdən də haqlıdır və bu haqlı mübarizəsini hər yerdə izah edərkən bu mübarizəni də meydanda və masada birlikdə aparmağa, inşallah, davam edəcəyik”.

Mən bu məqamda daha bir tarixi faktı yada salmaq istəyirəm. Belə ki, yeni əsrin ilk illərində Azərbaycan parlamentinin Avropa Şurası Parlament Assambleyasındakı daimi nümayəndə heyətinin rəhbəri olan İlham Əliyev bu beynəlxalq təşkilatda təmsil olunan Azərbaycan və Türkiyə parlamentarilərinin birgə fəaliyyət göstərməsi təklifi ilə çıxış etmiş və buna nail olmuşdu. Məhz həmin birgə fəaliyyətin nəticəsi olaraq, sessiya zamanı 9 ölkə və AŞPA-da fəaliyyət göstərən 5 siyasi qrupu təmsil edən 29 nümayəndə tərəfindən imzalanmış “Ermənilər tərəfindən azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımının tanınması” adlı yazılı bəyanat və 14 ölkəni təmsil edən 20 nümayəndə tərəfindən imzalanmış “Ermənistan və Dağlıq Qarabağda saxlanılan müharibə əsirləri və girovları” adlı tövsiyə üçün təklif AŞPA-nın rəsmi sənədləri qismində yayılmışdır. Göstərilən sənədlərdə ermənilər tərəfindən Xocalı əhalisinin tamamilə qətlə yetirilməsi, Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsi, Ermənistan və işğal edilmiş Azərbaycan torpaqlarında uşaq, qadın və yaşlı insanların da daxil olduğu 783 azərbaycanlı girovun saxlanılması faktı və digər vacib məsələlər xüsusi vurğulanmışdır.

Bu faktı yada salmaqda məqsədimiz odur ki, Azərbaycan və Türkiyə siyasətçiləri birlikdə fəaliyyət göstərəndə, işğalçı ölkənin istənilən addımının qarşısını almaq imkanı yaranır. Necə ki, bu gün ölkəmizin haqq işinin uğurla başa çatdırılmasının əsas stimulu, məhz qardaş Türkiyənin yanımızda olmasıdır.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***